Demokratik Təşəbbüslər İnstitutu

Institute for Democratic Initiatives

# DİNİ VƏSAİTLƏRƏ DAİR HÜQUQİ ÇƏRÇİVƏ, PRAKTİKİ VƏZİYYƏT VƏ TÖVSİYƏLƏR

*(Vicdan və ifadə azadlığı kontekstində)*

## ARAŞDIRMA SƏNƏDİ



BAKI - 2018

# İÇİNDƏKİLƏR

**Xülasə**-----------------------------------------------------------------------------------------------------2

**Giriş**-------------------------------------------------------------------------------------------------------3

**Qanunvericiliyin analizi**-----------------------------------------------------------------------------6

**İcmalarla görüş**-------------------------------------------------------------------------------------------9

**Nəticələr**---------------------------------------------------------------------------------------------------11

**Tövsiyələr**-------------------------------------------------------------------------------------------------12

# XÜLASƏ

Bu araşdırma dini vəsaitlərə dair hüquqi çərçivənin müəyyən edilməsi, onun Avropa İnsan Haqları Konvensiyasının (bundan sonra - AİHK) 9-cu və 10-cu maddələri, həmçinin Avropa İnsan Haqları Məhkəməsinin (bundan sonra - AİHM) presedent hüququ ilə uyğunluğunun yoxlanılması, monitorinq nəticəsində qanunvericilikdə aşkar olunan boşluqların və praktikada olan qüsurların aradan qaldırılması üçün tövsiyələr paketi hazırlamaq məqsədini daşıyır. Xüsusi metodologiya əsasında və müxtəlif monitorinq alətlərinin tətbiqi yolu ilə əldə edilmiş nəticələr əsasında hazırlanan və təqdim olunan hesabat əsasən aşağıdakıları əhatə edir:

Sənədin giriş hissəsində dini vəsaitlərlə bağlı ölkədə olan ümumi vəziyyət, mövcud problemlər, problemlərin aradan qaldırılması üçün beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən səylər, o cümlədən qəbul olunmuş beynəlxalq normalar haqqında məlumatlar verilir. Araşdırma nəticəsində məlum olmuşdur ki, vicdan və ifadə azadlığı ilə bağlı dövlət üzərinə öhdəliklər qoyan çoxsaylı beynəlxalq normalara baxmayaraq, bu azadlıqların əhatə dairəsinə düşən dini vəsaitlərlə əlaqədar ciddi problemlər mövcuddur.

Sənədin sonrakı hissəsi qanunvericiliyin analizinə həsr olunur. Analiz aparılarkən qanunvericilik səviyyəsində və qanunaltı normalar səviyyəsində dini vəsaitlərlə bağlı qanunvericilik, bu qanunların tətbiq edildiyi zaman yaranan problemlər və onları doğuran səbəblər təhlil edilmişdir. Bu problemlərin aradan qaldırılması üçün müvafiq tövsiyələr hazırlanmışdır. Qanunvericilik analiz olunarkən, qanunvericilikdə olan boşluqlar, ziddiyyətlər göstərilir, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq normalarla müqayisə aparılır və bu normaların adları sadalanır. Milli normalar analiz olunarkən İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi haqqında 1950-ci il Avropa Konvensiyasının vicdan azalığına (9-cu maddə) və ifadə azadlığına (10.-cu maddə) dair müddəalarında əks olunmuş prinsip və standartlar əsas götürülmüşdür.

Analiz zamanı müəyyən edilmişdir ki, müvafiq qanunvericilik aktları, xüsusən də **Dini etiqad azadlığı haqqında** Qanun və onun tətbiqi məqsədilə qəbul olunmuş digər normativ hüquqi aktlar bir çox hallarda ölkə Konstitusiyası və ölkənin tərəfdar çıxdığı müvafiq beynəlxalq normalarla uyğun gəlmir, bu isə öz növbəsində insan haqlarının pozulması ilə nəticələnir.

Praktikada olan problemlərin müəyyənləşdirilməsi məqsədi ilə monitorinq zamanı bir neçə alət tətbiq edilib. Bu alətlər **müvafiq dövlət orqanlarına göndərilən rəsmi sorğular, dini icmalardan alınan bilgilər, bu sahə üzrə ekspert, vəkil və hüquq müdafiəçilərindən alınan məlumatlar, mediada işıqlandırılmış faktlar** olub. Həmçinin yerli və beynəlxalq hesabatlara istinad edilib.

Sorğu göndərilən üç dövlət orqanından (Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi) yalnız ikisi – Dövlət Gömrük Komitəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (bundan sonra DQİDK) cavab verib.[1]

Dövlət Gömrük Komitəsi 01.01.2017-12.11.2017-ci il tarixləri arasında ölkəyə buraxılmayan dini təyinatlı ədəbiyyatların adları və sayı ilə bağlı sorğuya, konfidensial olması səbəbi ilə bu məlumatları hər hansı üçüncü tərəfə verə bilməyəcəkləri məzmununda cavab vermişdir. DQİDK-nin cavabı da təxminən eyni olmuşdur. Komitə Azərbaycanda istehsalı, satış və ya yayma məqsədi ilə idxalı, satış və yayımı qadağan olunmuş dini təyinatlı ədəbiyyatlarla bağlı sorğuya

[1] https://drive.google.com/file/d/1_EnBBkMC_5m7PCJkc2coIvWfTstzbDtz/view?usp=sharing

cavabında bildirib ki, bu məlumatlar daxili istifadə üçün nəzərdə tutulduğundan üçüncü tərəfə verilə bilməz. Qeyd edək ki, bu əsaslardan heç biri İnformasiya əldə etmək haqqında Qanunun 15, 22 və 24-cü maddələrinin tələbləri ilə düz gəlmir. Dövlət orqanları suallara cavab vermədikləri üçün mətbuatda yayılan məlumatlara istinad edilib.

Dini icmalardan isə bilgilər anket sorğuları vasitəsi ilə alınıb. Bu anketlərdə müxtəlif suallar əks olunub. Suallara verilən cavablardan aldınan nəticə budur ki, Azərbaycanda İslam dininə aid icmalar dini ədəbiyyatın çapı, ölkəyə gətirilməsi, yayılması kimi işlərlə məşğul olmurlar. İslama aid kitabların nəşri, çapı, ölkəyə gətirilməsini əsasən ayrı-ayrı fərdlər və satış məntəqələri həyata keçirir. Ölkəyə kitab gətirilməsi, kitab çapı kimi məsələlərlə bağlı problem yaşayan dini icmalar əsasən «Yehovanın Şahidləri» və «Xristian-Baptist» dini icmasıdır. Aid olduğu dindən asılı olmayaraq, istənilən dini icmaya aid ədəbiyyatların ölkəyə gətirilməsi, çapı, yayımı və satılmasında ciddi problemlər var.

Mövzu ilə əlaqədar ekspertlərin, hüquqşunasların, vəkillərin, həmçinin zərərçəkmiş şəxslərin verdiyi məlumatlardan istifadə edilib. Verilən məlumatlardan aydın olmuşdur ki, məhkəmə çəkişmələri zamanı dini vəsaitlərlə bağlı yaranmış problemlər əksər hallarda vətəndaşların xeyrinə həll olunmur. Bu, qanunlardakı boşluqlardan, alternativ müstəqil ekspertizanın mövcud olmamasından və məhkəmələrin işə obyektiv yanaşmamasından qaynaqlanır.

Hesabatın sonunda monitorinq üzrə yekun nəticələr və tövsiyələr yer almışdır. Tövsiyələr həm qanunvericiliyin təkmilləşdirilməsi, həm də praktikada olan qüsurların aradan qaldırılmasına yönəlib.

## GİRİŞ

### Beynəlxalq hüquq

*Kokkinakis Yunanıstana qarşı* işdə Avropa Məhkəməsi vurğulayır ki, düşüncə, vicdan, din və etiqad azadlıqları "demokratik cəmiyyət"in əsaslarından biridir[2]. Dini vəsaitlərə çatımlılıq, onların yayımı, istehsalı, satışı kimi məsələlər məhz bu azadlıqların əhatə dairəsinə düşür. İnsanlar inanc və düşüncələrindən dolayı müxtəlif ədəbiyyata, əşya və aksessuarlara ehtiyac duyurlar. Məsələn, bir yəhudi özünü ifadə etmək üçün başına kipa qoymağa, xristian isə boyunundan xaç asmağa ehtiyac duya bilər. Bu ehtiyacların dini rituallar gərəyi yaranması da mümkündür. Şiə məzhəbindən olan müsəlmanlar namaz zamanı möhürdən istifadə edirlər, müsəlman qadınların isə namaz zamanı hicab bağlamaları şərtdir. Buna görə də bir müsəlmanın dini rituallardan istifadə etməsini hər hansı şəkildə məhdudlaşdırmaq onun vicdan və ifadə azadlığına müdaxilə hesab edilə bilər.

BMT-nin İnsan Hüquqları üzrə Komissiyasının[3] və İnsan Hüquqları Şurasının[4] qətnamələrində vurğulanıb ki, düşüncə, vicdan, din və ya etiqad azadlığına dini əlaqələr sahəsində "müvafiq nəşrlər hazırlamaq, istehsal etmək və yaymaq" hüququ daxildir. İnsan Hüquqları Komitəsinin 22 saylı Ümumi Şərhində isə dini qrupların dini mətnlər və ya nəşrlər hazırlamaq və yaymaq

[2] Kokkinakis Yunanıstana qarşı 25 may 1993-cü il qərarı, A Seriyaları, N 260-A, səh. 17, bənd 31
[3] Komissiyanın 2005/40 saylı Qətnaməsi (bənd 4(d))
[4] Şuranın 6/37 saylı Qətnaməsininin "dövlətlər [...] o cümlədən, bütün şəxslərin bu sahədə müvafiq nəşrlər hazırlamaq, istehsal etmək və yaymaq hüququna təminat verməyi öhdələrinə götürürlər" məzmunlu 9 (g) bəndi

azadlığının "dini və ya etiqadı tətbiq etmək və ya tədris etmək" anlayışına daxil olduğu qeyd edilib[5].

**Azərbaycan təcrübəsi**

Azərbaycanda dini vəsaitlərə dair qanunvericiliyə gətirilən məhdudiyyətlər ölkədə din sahəsində vəziyyətin gərginləşməyə başladığı dövrə təsadüf edir. Belə ki, Bakı İslam mədəniyyəti paytaxtı elan edilən 2009-cu ildə paytaxtda 3 məscid «qanunsuz tikili» adı ilə dağıdıldı[6]. Dövlət rəsmilərinin sözlərinə görə, həmin məscidlərin sənədləri qaydasında deyildi[7]. Halbuki müvafiq dövlət orqanları rahatlıqla həmin məscidləri sənəd verib qanuniləşdirə bilərdi.

Həmin il "Dini etiqad azadlığı haqqında" Qanuna edilən dəyişikliklə dini fəaliyyət imkanları xeyli məhdudlaşdırıldı. Bu dəyişikliklə Azərbaycandan kənarda dini təhsil alanlara ölkədə dini mərasimləri idarə etmək qadağan edildi[8] (yumşaldıldı[9]).

Konstitusiyada və digər qanunvercilik aktlarında nəzərdə tutulmadığı halda, 2010-cu ildən başlayaraq, şagirdlərin hicablı formada orta məktəblərə gəlməsi qeyri-rəsmi şəkildə qadağan edildi[10]. Qadağaya etiraz məqsədi ilə ölkə daxilində[11] və xaricində[12] aksiyalar keçirildi. Aksiyalarda iştirak edən onlarla şəxs həbs olundu[13].

2011-ci ilin dekabrında qanuna edilən daha bir dəyişikliklə dini vəsaitlərin satışına görə cəzalar ağırlaşdırıldı[14]. Daha öncə dini vəsaitlərin qanunsuz satışına görə yalnız inzibati cəza – 200 manatdan 400 manatadək cərimə nəzərdə tutulurdu. Bu dəyişiklikdən sonra eyni əmələ görə inzibati cəza ləğv edilərək, cinayət məsuliyyəti tətbiq olundu. Cərimə cəzası azadlıqdan məhrumetmə ilə əvəz edildi. Artıq bu əməli törədənlər 5 ilədək həbs cəzası ilə üzləşə bilərlər.

Yerli təşkilat olan Media Hüququ İnstitutu qanunvericilikdə edilən dəyişiklilərdən sonra verdiyi bəyanatında bildirmişdir ki, «müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və yayma»ğa görə ağır cinayət cəzaları müəyyən edən qanunu ölkədə ifadə azadlığına ciddi təhlükədir[15].

Digər yerli hüquq müdafiə təşkilatı DEVAMM (Dini Etiqad və Vicdan Azadlıqlarının Müdafiə Mərkəzi) isə bunu qərəzli və əsassız addım kimi qiymətləndirib.[16]

---

[5] 22 saylı Ümumi Şərh, Düşüncə, vicdan və din azadlığı hüququ (Maddə 18), 07/30/1993. CCPR/C/21/Rev. 1/əlavə 4/bənd 4
[6] https://az.trend.az/azerbaijan/society/1492012.html
[7] https://az.trend.az/azerbaijan/society/1468391.html
[8] 30 iyun 2009-cu il tarixli 841-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan qəzeti 22 iyul 2009-cu il, 158, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 07, maddə 512)
[9] 04 dekabr 2015-ci il tarixli 29-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan qəzeti, 06 dekabr 2015-ci il, 269, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 12, maddə 1443)
[10] https://www.youtube.com/watch?v=Xjig1w0Puxg
[11] https://www.youtube.com/watch?v=ho799DNVtxU
[12] https://www.youtube.com/watch?v=1fnSo_81dFs
[13] https://docs.rferl.org/az-AZ-Latn/2014/08/31/fe73dd1b-7a24-4d85-bfb2-02f2adcb172e.pdf
[14] 14237-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Respublika" qəzeti, 13 dekabr 2011-ci il, № 269, "Azərbaycan" qəzeti, 14 dekabr 2011-ci il, № 276, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1093)
[15] https://www.azadliq.org/a/24422600.html
[16] https://www.azadliq.org/a/24420217.html

İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) 2011-ci il üzrə hesabatının «Dini azadlıqlarla bağlı digər məsələlər» hissəsində isə qeyd olunur ki, DQİDK çox hallarda dini tələb olunan və bu tələbi edən icmaların mümkün ehtiyaclarından az sayda dini kitabın ölkəyə gətirilməsinə icazə verir.[17] Təşkilatın 2016-cı ildəki hesabatında dövlət orqanlarının din azadığı ilə bağlı ümumi münasibətlərini dəyişməyə ehtiyacı olduğu bildirilir:

> *"...Lazımi hüquqi dəyişikliklərin qüvvəyə minməsinə qədər dövlət orqanları hazırki qanunvericiliyi xüsusən AİHK-nın 9 və 14-cü maddələrinin məcburi normalarına və AİHM-in presedent hüququna uyğun şəkildə şərh və tətbiq etməli, demokratik cəmiyyətdə din azadlığına bu cür məhdudiyyətlərin lazım olması barədə aydın məlumat olmadıqda polis basqınlarından, həbslərdən və cəza qərarlarından əl çəkməlidir."*[18]

ABŞ-ın 2016-cı ildə dini azadlığın vəziyyətinə dair beynəlxalq hesabatında qeyd olunur ki, ABŞ Səfiri və səfirlik əməkdaşları hökumət nümayəndələrini, o cümlədən DQİDK-nin yüksək vəzifəli məmurlarını dini qurumların qeydiyyatı ilə bağlı davam etməkdə olan uzunmüddətli məsələləri, habelə dini təyinatlı ədəbiyyatın ölkəyə gətirilməsi və nəşr olunması ilə bağlı maneələri aradan qaldırmağa çağırmaqda davam etmişdir[19].

Beynəlxalq Dini Azadlıq üzrə ABŞ Komissiyası (USCİRF) da 2017-ci ilə dair hazırladığı hesabatda Azərbaycanda dini ədəbiyyatlarla bağlı problemlərin olduğunu bildirmiş və problemlərin həlli istiqamətində ABŞ hökumətinə tövsiyələr vermişdir.[20]

Human Rights Watch təşkilatı 2012-ci il üzrə hesabatında vurğulamışdır ki, Azərbaycanda dini vəsaitlərlə bağlı qanunvericilikdə din azadlığı məhdudlaşdırılıb.[21]

Venesiya Komissiyasının Dini etiqad azadlığı haqqında Qanunla bağlı 2012-ci ildə verdiyi birgə rəyində də Qanunun geniş analizi aparılmış, hökumətə zəruri tövsiyələr verilmişdir.[22]

Təəssüfləndirici haldır ki, yerli və beynəlxalq təşkilatların səylərinə baxmayaraq, dini vəsaitlərlə bağlı qanunvericlikdə olan məhdudiyyətlər bu günədək aradan qaldırılmayıb. Məsələn, artıq uzun müddətdir ki, türkiyəli din xadimi Səid Nursinin kitablarının ölkəyə gətirilməsinə icazə verilmir.[23] Vaxtaşırı ölkə mediasında yayılan xəbərlərdə Daxili İşlər Nazirliyinin müxtəlif yerlərdə keçirdiyi əməliyyatlarda bu ədəbiyyatların cinayət predmenti kimi aşkar edilərək götürüldüyü bildirilir.[24] Sözügedən kitablar qonşu Rusiya Federasiyasında da qadağan edilib[25].

*Yedinoe Dukhovnoye Upravleniye Musulman Krasnoyarskogo Kraya Rusiyaya qarşı* işdə AİHM müəyyən etmişdir ki, bu kitabların qadağan edilməsi üçün heç bir əsas yoxdur.[26] AİHM-in

---

[17] https://www.coe.int/t/dghl/monitoring/ecri/country-by-country/azerbaijan/AZE-CbC-IV-2011-019-AZE.pdf
[18] https://www.coe.int/t/dghl/monitoring/ecri/Country-by-country/Azerbaijan/AZE-CbC-V-2016-017-AZE.pdf
[19] https://az.usembassy.gov/az/2016-ci-ildə-dini-azadligin-vəziyyətinə-dair-beynəlxalq-hesabat/
[20] https://www.uscirf.gov/sites/default/files/Azerbaijan.Azeri%20translation.pdf
[21] https://www.hrw.org/az/world-report/2013/country-chapters/259896
[22] Dini Etiqad Azadlığı Haqqında Azərbaycan Respublikasının Qanunu ilə bağlı birgə rəy: Venesiya Komissiyası və ATƏT/DTİHB (Rəy-N.: FOR-AZE/214/2012)
[23] https://apa.az/xeber-az/dini-xeberler/risaleyi-nur-azerbaycanda-2012-ci-ilin-sonundan-qadagan-olunub-video.html
[24] http://www.bbc.com/azeri/azerbaijan/2014/04/140414_baku_gulenists_operation
[25] https://www.osce.org/odihr/106483?download=true
[26] Səid Nursinin yazılarının dindar olmayanlara qarşı düşmənçiliyi və nifrəti artırıb artırmaması ilə bağlı mübahisə haqqında 4 aprel 2011-ci ildə verilmiş 28621/11 saylı Yedinoe Dukhovnoye Upravleniye Musulman Krasnoyarskogo Kraya Rusiyaya qarşı işə

ekspertizasının nəticəsinə görə Səid Nursinin kitabları hər hansı şiddət, fanatikliyə çağırış, ksenofobiya, dini ayrı-seçkilik məzmunu daşımır. Bu qərardan çıxış edərək DQİDK-nin Səid Nursinin kitabları ilə bağlı qərarını qanunsuz və əsassız hesab etmək olar.

2018-ci il fevralın 8-də İslam ilahiyyatçısı Elşad Miri hazırladığı video-müraciətdə DQİDK-in onun "İslamda yoxdur" adlı kitabının çapına qadağa qoyduğunu deyib[27]. O, verilən rəyin əsassız və qərəzli olduğunu hesab edərək qurumu məhkəməyə verib.

Qeyd edək ki, bu, Dini Komitənin ilk məhkəməyə verilmə halı deyil. Dini kitabların ölkəyə gətirilməsinə icazə verilməməsi ilə bağlı Yehovanın Şahidləri təriqətinin bir işi hazırda Avropa Məhkəməsindədir[28]. Şikayətçilər milli qanunvericiliyə uyğun olaraq, ölkəyə kitab gətirmək üçün DQİDK-ə müraciət ediblər. Ancaq komitə ölkəyə gətirilməsi istənilən ədəbiyyatların hamısını məqbul saymayıb.

## QANUNVERİCİLİYİN ANALİZİ

### Azərbaycan Respublikasının Konstitusiyası

Konstitusiyanın 12-ci maddəsinin ikinci hissəsində Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edildiyi göstərilib[29]. Buradan belə nəticə çıxarmaq olar ki, insan haqları ilə bağlı respublikanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə nisbətdə milli qanunvericilikdə fərqli qaydalar müəyyən edilibsə, beynəlxalq müqavilənin norması tətbiq olunmalıdır.

Başqa sözlə, Ana Yasa dini vəsaitlərlə bağlı qanunvericliyin də beynəlxalq hüququn normalarına uyğunlaşdırılmasını zəruri edir.

### Dini etiqad azadlığı haqqında Qanun

Bu qanunun 22-ci maddəsinə əsasən dini təyinatlı ədəbiyyatı, əşyaları və dini məzmunlu başqa məlumat materiallarını ölkəyə gətirmək, çap etmək, satmaq və ya yaymaq üçün müvafiq dövlət orqanından öncədən icazə almaq lazımdır[30]. Məzmunudan (istər dini, istərsə də başqa) asılı olmayaraq hər hansı "ədəbiyyatı" və "başqa məlumat materiallarını" çap etmə, idxal etmə, satma və yayma ifadə azadlığı hüququndan istifadə etmə formalarıdır. Avropa Konvensiyasının 10-cu maddəsinə əsasən, bu hüquq qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlərə məruz qala bilər[31]. İnsan haqlarına dair ən önəmli beynəlxalq müqavilələrdən olan Avropa Konvensiyasını Azərbaycan 2001-ci ilin dekabr ayında ratifikasiya edib[32]. Bununla Konvensiyanın və onun protokollarının verdiyi haqları, o cümlədən hər kəsin ifadə və vicdan azadlığını öz yurisdiksiyası altında olan ərazilərdə təmin edəcəyi barədə öhdəlik götürüb, Avropa Məhkəməsinin yurisdiksiyasını, həm də Konvensiya ilə bağlı Məhkəmənin presedent hüququnun ölkə daxilində tətbiq edilənliyini qəbul edib. AİHM-nə görə hər hansı müdaxilənin *demokratik cəmiyyətdə zərurilik* prinsipinə cavab verməsi üçün güdülən legitim

[27] https://www.youtube.com/watch?v=M8TSAz2uqSY
[28] https://www.azadliq.org/a/28870221.html
[29] http://www.e-qanun.az/framework/897
[30] http://www.e-qanun.az/framework/7649
[31] http://www.e-qanun.az/framework/1405
[32] Azərbaycan Respublikasının Qanunvericilik Toplusu № 03

məqsədə mütənasib olması və israrlı sosial tələbatın olması lazımdır[33]. Qanunda göstərilmiş öncədən razılıq alınma tələbi isə ön senzura anlamına gəlir və heç cür legtim məqsədə mütənasib sayıla bilməz. Çünki məzmununda nifrət niqti, şiddət, ksenofobiya elementləri olan, cəmiyyətdə nifaq yarada biləcək ədəbiyyat nümunələrinin qarşısını məhkəmə yolu ilə almaq olar. Bu, daha ağlabatan, uğurlu və demokratik cəmiyyətin prinsiplərinə uyğun həll yoludur. Diqqət edin: Belə sərt məhdudiyyətlər və nəzarət yalnız dini ədəbiyyatlarla bağlı nəzərdə tutulub. Cəmiyyətin ən təhlükəli sferası kimi qanunlar səviyyəsində dini sahənin təsbit edilməsi demokratik cəmiyyətdə zərurilik prinsipi ilə nəinki uzlaşır, əksinə cəmiyyətdə vətəndaşlarla dövlət arasında qarşılıqlı etimad mühitini sarsıdır.

BMT-nin İnsan Hüquqları Komitəsi bildirib ki,

> *"dini və ya etiqadı ibadət, təlimlər, dini və mərasim ayinləri zamanı ifadə etmək azadlığı çoxsaylı hərəkətləri [...]; dini və ya etiqadı tətbiq və ya tədris etmək [...] dini məzmunlu mövzuları və ya nəşrləri hazırlamaq və yaymaq azadlığını əhatə edir"*[34].

BMT-nin Baş Assambleyası da oxşar olaraq dövlətləri bütün şəxslərin bu sahədə (din və ya etiqad) müvafiq nəşrlər hazırlamaq, çap etmək və yaymaq hüquqlarını təmin etməyə çağırıb[35]. Həmçinin, ATƏT-in Vyana Yekun Sənədi (1989) müəyyən edir ki, ATƏT-ə üzv olan dövlətlər dindar şəxslərin və dindar icmaların müqəddəs kitablar və dini nəşrlər [...], dinin və ya etiqadın tətbiqi ilə əlaqədar başqa məqalələr və materiallar əldə etmək, onlara malik olmaq və onlardan istifadə etmək hüquqlarına hörmətlə yanaşmalı və dindarlara, qurumlara və təşkilatlara dini nəşr və materiallar istehsal etmə, idxal etmə və yaymağa icazə verməlidirlər[36].

Normada *"...dini təyinatlı ədəbiyyat", "dini təyinatlı mal və məmulatlar"* yaxud *"dini məzmunlu başqa məlumat materialları"* kimi aydın və bəlli olmayan ifadələrin işlədilməsi qanunun keyfiyyəti və onun tətbiqinin qanuniliyi ilə bağlı suallar doğurur. Bu ifadələrə normativ anlayış verilməmişdir, bu da öz növbəsində öncəgörüləbilənlik və hüquqi müəyyənlik prinsipinin pozulması ilə nəticələnir ki, qanunun özbaşına və mülahizə sərbəstliyinə imkan verməklə tətbiqinə gətirib çıxara bilər. Dini ədəbiyyat deyildikdə nəyin nəzərdə tutulduğu ictimaiyyətə açıqlanmalıdır - bəzən dini olmayan ədəbiyyatlarda da dini məsələlərə toxunulur. Ədəbiyyatların hansı meyarlar əsasında bu qanunun əhatə dairəsinə düşüb-düşmədiyi müəyyənləşdirilməlidir.

Müxtəlif fikir və mülahizələrdən çıxış edərək "Dini təyinatlı ədəbiyyat" ifadəsinə doktrinal şərh versək, dini məzmuna malik olan, insanların dini ehtiyaclarını və dini inanclarla bağlı başqa sosial tələbatlarını ödəməyə yönələn əsərlər başa düşülməlidir. Belə əsərlərdə dini ayinlər və onların icrası qaydası haqqında məlumatlar, nəzəriyyə və təlimlər, dini ehkamlar və onların şərhi, dinlərin yaranması və təşəkkülü ilə bağlı bilgilər, tanınmış din xadimlərinin fikir və mülahizələri, habelə dini məzmunlu başqa məlumatlar əksini tapa bilər.

*Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin* 7.8-ci maddəsi ilə dini ədəbiyyatın, əşyaların və dini məzmunlu başqa məlumat

[33] Handyside Birləşmiş Krallığa qarşı, 5493/72, 07.12.1976, § 49
[34] BMT İnsan Hüquqları Komitəsinin CCPR 22 saylı Ümumi Şərhinin 4-cü bəndi, maddə 18
[35] BMT Baş Assambleyasının Din və ya etiqada əsaslanan dözümsüzlüyün və ayri-seçkiliyin bütün formalarının ləğv edilməsi barədə 62/157 saylı Rezolyusiyanın 10-cu bəndi, məktub "c" (18 dekabr 2007-ci ildə qəbul edilib).
[36] ATƏT-in Vyana Yekun Sənədi (1989), bənd 16.9 və 16.10

materiallarının dinşünaslıq ekspertizasının aparılmasının təmin edilməsi Komitənin vəzifələrinə aid edilib[37].

*Dini etiqad azadlığı haqqında Qanunun* 29-cu maddəsində qeyd olunur ki, Dini Komitə *dinşünaslıq ekspertizasının aparılmasını təmin edir, bu işə dini qurumların nümayəndələrini və müvafiq mütəxəssislərini cəlb edir.* Burada sual doğuran məqam, mövcud normada nəzərdə tutulmuş qaydanın nə dərəcədə uğurlu yanaşma olması ilə bağlıdır. Çünki dini ədəbiyyat akademik sahəyə daxil olduğundan burada müxtəlif yozumların, interpretasiyaların, təfsirlərin olması təbii və qaçınılmazdır. Bu yozum, interpretasiya və təfsirlər isə ekspertlərin, həmçinin cəmiyyətin böyük hissəsinin fikirləri ilə üst-üstə düşməyə bilər.

*Handyside İngiltərəyə qarşı* işdə Avropa Məhkəməsi düşüncəni açıqlamaq-yaymaq azadlığının demokratik cəmiyyətin ən təməl qaynaqlarından biri olduğunu ifadə edərək, ifadə azadlığının sadəcə təbii qarşılanan, zərərsiz ya da önəmsiz görünən məlumat və düşüncələrin açıqlanmasına aid olmadığını, əlavə olaraq dövlətin və cəmiyyətin müəyyən bir hissəsinin düşüncələri ilə ziddiyyət təşkil edən, onları şok edə biləcək, narahat edə biləcək düşüncələrin açıqlanması baxımından da keçərli olduğunu qeyd edir. Sırf ekspertlərin və cəmiyyətin müəyyən bir hissəsinin düşüncələrinə uyğun gəlmədiyi üçün belə ədəbiyyatların nəşrinə, idxalına icazə verilməməsi akademik azadlıqların məhdudlaşdırılması, ifadə və vicdan azadlığına gətirilmiş senzura hesab oluna bilər.

Digər bir pozuntu isə Dini Komitənin hər hansı kitabla bağlı rəyinin məhkəmə müstəvisində mübahisələndirildiyi zaman bu rəyin ekspertizasını həyata keçirəcək alternativ qurumun qanunvericilikdə nəzərdə tutulmamasıdır. Mövcud praktikada hər hansı dini vəsaitlə bağlı Dini Komitənin verdiyi rəy məhkəmə müstəvisində mübahisələndirildiyi zaman həmin vəsaitin ekspertizasına yenə Komitədən cəlb olunmuş ekspertlər cəlb olunur. Bu isə *qərəzsizlik prinsipini* pozmaqla ekspertizanın *obyektivliyinə* və *müstəqilliyinə* şübhə yaradır.

Qanunun 22-ci maddəsinin 3-cü bəndinin tələbinə görə, dini ədəbiyyat müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən icazə markası ilə markalandıqdan sonra *satışının yalnız müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yaradılmış ixtisaslaşdırılmış satış məntəqələri vasitəsilə həyata keçirilməsinə* icazə verilir. Bu tələb təkcə AİHK-nin 9-cu maddəsi deyil, eləcə də 10-cu maddəsi çərçivəsində ciddi suallar meydana çıxarır və demokratik cəmiyyətdə zəruri olaraq buna haqq qazandırmağın mümkünlüyü şübhə doğurur. Digər yandan, hazırda internet vasitəsi ilə istənilən məzmunda ədəbiyyatı rahat əldə etmək mümkün olduğundan və bunun qarşısını faktiki olaraq almaq mümkün olmadığından qanunun bu normasının funksionallığı sual altına düşür.

## Cinayət Məcəlləsinin 167-2-ci maddəsinin analizi

2011-ci ildə qanunda edilən dəyişikliklərlə 300.0.1 və 300.0.2-ci maddələr İnzibati Xətalar Məcəlləsindən çıxarılaraq birləşdirilmiş formada 167-2-ci maddə kimi Cinayət Məcəlləsinə daxil edildi[38]. İnzibati Xətalar Məcəlləsində müvafiq icra hakimiyyəti orqanının razılığı olmadan dini təyinatlı ədəbiyyatın, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının yayılmasına görə daha öncə 200 manatdan 400 manatadək cərimə nəzərdə tutulurdu. Bu maddə İnzibati

[37] Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə (Azərbaycan Respublikası Prezidentinin 20 iyul 2001-ci il tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmişdir; № 544)

[38] 237-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Respublika" qəzeti, 13 dekabr 2011-ci il, № 269)

Xətalar Məcəlləsinə 2009-cu ildə əlavə olunub[39]. Yeni maddə ilə eyni əmələ görə 5000 manatdan 7000 manatadək cərimə və ya 2 ilədək azadlıqdan məhrumetmə, eyni əməllər qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə, eyni zamanda təkrar törədildikdə, 7000 manatdan 9000 manatadək cərimə və ya 2 ildən 5 ilədək müddətində azadlıqdan məhrumetmə cəzası müəyyənləşdirildi. Göründüyü kimi, 200 manat cərimə tətbiq edilən inzibati xəta birdən-birə cinayət əməlinə çevrildi və 5 ilədək həbs cəzası kimi ağır təhdidlə üz-üzə qoyuldu.

Halbuki, statistika göstərir ki, bu müddət ərzində dini ədəbiyyatın və dini əşyaların satışına görə cərimə ya heç tətbiq edilməyib, ya da nadir hallarda olub. Həmçinin qanunda *"məhkəmənin qanuna minmiş hökmü ilə qadağan edilmiş ədəbiyyatın satışına görə"* yazılmır. Əgər belə yazılsaydı, hüquqi qüvvəyə minmiş məhkəmə hökmünü pozmağa görə məsuluiyyəti hardasa anlamaq olardı. Həmçinin bu cür çox da təhlükəli olmayan pozuntuya görə belə sərt cəzanın tətbiqi qeyri-adekvatdır.

Qanunun bu normasının məntiqinə əsasən Həcc ziyarətindən qayıtmış mömün yaxınlarına hədiyyə vermək məqsədi ilə alıb gətirdiyi təsbeh üçün razılıq almalıdır, əgər belə bir razılıq olmazsa, onu CM-in 167-2-ci maddəsinə əsasən cinayət təqibi gözləyə bilər. Bu baxımdan, belə əşyaların məhz dini təyinatlı olmasına görə istehsalı, ölkəyə gətirilməsi və yayılması üçün icazə sisteminin tətbiqi uğurlu yanaşma hesab edilməməlidir (mövcud təcrübədə bu əşyaların dövriyyəsi üçün, demək olar ki, heç bir halda razılıq alınmır).

Hesab edirik ki, Qanunda nəzərdə tutulan *dini təyinatlı mal və məmulatlar* üçün hər hansı razılığa, ümumiyyətlə, ehtiyac yoxdur, çünki başlıca olaraq kommersiya məqsədi ilə mülki dövriyyədə olan həmin əşyalar dini təbliğatda o dərəcədə önəmli rol oynamır və onların vasitəsi ilə hər hansı ictimai zərərli ideyanın yayılması real deyildir. Ümumilikdə isə CM-in 167-2-ci maddəsində nəzərdə tutulmuş hərəkətlərin belə razılıq olmadan edilməsinə görə ayrıca normada cinayət məsuliyyətinin nəzərdə tutulması yanlışdır. Çünki müvafiq tərkib əlamətləri olduqda sadalanan məzmunlu təbliğat aparılmasına görə CM-in 283-cü maddəsində cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Həmin predmetlərin sadəcə razılıq alınmadan istehsalına, ölkəyə gətirilməsinə və yayılmasına görə inzibati məsuliyyətin müəyyən olunması yetərli olardı.

## İCMALARLA GÖRÜŞ

Mövzu ilə əlaqədar Bakıda və ölkənin bir neçə digər regionunda dini icmalarla görüşlər keçirildi. Bakıda ən çox insanın gəldiyi məscidlərdən olan Məşədi Dadaş məscidinin dini icmasından əldə edilən məlumata görə, dini icma kitab çapı, yayımı, satışı kimi məsələlərlə məşğul olmur. İcmadan bildirildi ki, İslam dininə aid kitabların ölkəyə gətirilməsi, satışı, çapı kimi məsələlər əsasən fərdi təşəbbüslər şəkilində olur və yaxud dini kitabların satışı ilə məşğul olan mağazalar bunda maraqlı olurlar. Sonrakı araşdırmalar da icmadan deyilənləri təsdiqlədi.

Belə ki, İmişli rayon Mirili kənd icmasından suallara verilən cavabda bildirildi ki, yaranan kitab ehtiyacı Bakıdan gətirilən kitablarla qarşılanır.

[39]https://azertag.az/xeber/azarbaycan_respublikasinin_cinayat_macallasina_inzibati_xatalar_macallasina_va_cinayat_prosessual_macallasina_alavalarin_va_dayisikliklarin_edilmasi_haqqinda_azarbaycan_respublikasinin_qanunu-443182

Şəki şəhərində ən böyük məscid olan Cümə məscidinə daimi gəlib-gedən dindarlar isə ölkəyə xaricdən kitab gətirilməsi ilə bağlı ciddi problemlərin olduğunu, Türkiyədən və ya Rusiyadan Türk-Rus çapı Qurani-Kərimin tərcüməsinin, təfsir və tövhidə aid kitablarının gətirilməsinə qadağa qoyulduğunu bildirdilər. Analoji hal İrandan gətirilən kitablarla bağlı da yaşanır.

Bakıda dini kitabların satışı ilə məşğul olan bir neçə mağazadan alınan məlumata görə, "Bağdad alimlərinin bəhsi" (müəllif: Məqafil-İbn Ətiyyə), "Doğru olanlarla birgə" (müəllif: Məhəmməd Ticani Səmavi), "Pişəvəri gecələri" (müəllif: Seyid Məhəmməd Musəvi-Şirazi), "Vəhhabiyyət iki yol arasında" (müəllif: Şeyx Nasir Məkarin Şirazi), "Vəhhabi Firqəsi" (müəllif: Seyid Məhəmməd Həsən Qəzvini), "Peyğəmbərin haqq canişini kimdir?" (müəllif: Əhməd Əsədnajat), "Qərb dinində - Aşurayadək" (müəllif: Seyid Kazım Pərpənci), "Cəməl müharibəsi" (müəllif: Cəsar Sübhani), "Günahın acısı" (müəllif: Haşim Rasuli), "Zühur əsri" (müəllif: Əli Kuranu), "Şiə və əsassız ittihamlar" (müəllif: Seyid Sadiq Şirazi) adlı kitabların ölkəyə gətirilməsinə və satışına icazə verilmir. Bu kitabların adları ən radikal və təhlükəli dini nəşrlərin siyahısında da yer alıb[40].

## Məhkəmə təcrübəsi

Araşdırmalardan məlum olur ki, indiyədək İslam dininə aid dini vəsaitlərlə bağlı Dini Komitənin məhkəməyə verilmə faktı olmayıb. Sonuncu dəfə 2018-ci il 8 fevral tarixində ilahiyyatçı Elşad Miri müəllifi olduğu "İslamda yoxdur" adlı kitabın çapına razılıq vermədikləri üçün Dini Komitəni məhkəməyə verəcəyini bildirib[41]. Daha sonra E.Mirilə əlaqə saxlanıldıqda məlum oldu ki, onun şikayətinə 1 saylı Bakı İnzibati-İqtisadi məhkəməsində Aprel ayından etibarən baxılacaq.

Dini kitabların ölkəyə gətirilməsinə icazə verilməməsi ilə bağlı yeganə məhkəməyə müraciətetmə faktı hələ ki, «Yehovanın Şahidləri» dini icmasına aiddir. Ölkəyə gətirmək istədikləri dini ədəbiyyatla bağlı problem yaşayan dini icma ölkədaxili məhkəmə instansiyalarının heç birində qalib gələ bilməyib. Bundan sonra icma Avropa Məhkəməsinə müraciət edib,[42]şikayət üzrə kommunikasiya başa çatıb və iş qərarın qəbulu mərhələsindədir. Təriqətə aid olan "Yehova müasir xalqı", "Müqəddəs kitab – Əhdi-Ətik", "Gözətçi qülləsi", "Yehova Allahın padşahlığını bəyan edir" adlı kitabların ölkə gətirilməsinə qadağa var.

Vəkil Yalçın İmanovdan əldə olunan məlumata görə fəaliyyəti dövründə qanunsuz dini ədəbiyyatlarla bağlı bir sıra məhkəmə işlərində olub. Onun sözlərinə görə, 2014-cü ilin aprel ayında Bakıda qanunsuz olaraq dini ədəbiyyat yaymaqda ittiham olunaraq, saxlanılan türkiyəli ilahiyyatçı Səid Nursinin tərəfdarları siyasi konyekturanın qurbanı olublar[43]. Vəkil bildirib ki, bu şəxslər 2015-ci ildə Türkiyədə baş vermiş çevriliş cəhdindən sonra Türkiyədə Fətullah Gülən tərəfdarlarına qarşı başlanmış həbslərin təsiri ilə azadlıqdan məhrum ediliblər. Onların Fətullah Gülənlə heç bir əlaqəsi olmayıb və həbsləri siyasi motivlərlə həyata keçirilib.

Y.İmanov 2012-ci ildə həbs olunmuş jurnalist Nicat Əliyevin də CM-nin 167-2.2.1-ci (qanunsuz olaraq dini ədəbiyyatı yayma) maddəsi ilə ittiham olunduğunu, lakin bunun da əsassız olduğunu

[40] http://m.apa.az/az/dini-xeberler/azerbaycanda-qadagan-olunmus-en-tehlukeli-dini-edebiyyatlarin-siyahisi-aciqlanib-ekskluziv-video
[41] https://www.youtube.com/watch?v=M8TSAz2uqSY
[42] https://www.azadliq.org/a/28870221.html
[43] https://www.azadliq.org/a/27293451.html

bildirib[44]. Belə ki, Dini Komitə Nicat Əliyevin evindən tapılan Ərşad Əzimzadənin "Möcüzəsiz möcüzə. Onu yaratmağa hər Allah bəndəsi qadirdir", İsmayıl Əhmədovun "İmam Zamanla görüşənlər" və Şəhid Mürtəza Mütəhhərinin "Həmaseyi Hüseyni. İmam Hüseyn qəhramanlığı" kitablarının *dini təyinatlı ədəbiyyat* olması barədə rəy verib və bu, onun cinayət işinə əlavə edilib. Halbuki adıçəkilən birinci kitab xəstəliklərin müalicəsi üsullarından bəhs edir və qətiyyən dini təyinatlı hesab edilə bilməz, ümumiyyətlə hər üç kitab kitab mağazalarında açıq satışdadır.

Vəkil Fariz Namazlı isə 2016-ci ildə həbs olunan fəal Elgiz Qəhrəmanlının evində axtarış zamanı polislərin rus və türk dillərində olmaqla iki dini ədəbiyyat qoyduğunu, amma sonradan bununla ittiham olunmadığını bildirib[45]. Ekspertiza həmin kitabların qadağan olunmuş dini ədəbiyyat olmadığı barədə rəy verib. F.Namazlının sözlərinə görə, o kitabların Elgizin evinə niyə qoyulduğu və niyə ona bu ittihamın verilmədiyi onlara bəlli olmayıb. Vəkil həmin dövrdə Azərbaycanda "Fetoçular"la bağlı həbslərin həyata keçirilirdiyini deyir.

Dini vəsaitlərlə bağlı problem yaşamış daha bir şəxs Bakı Dövlət Universitetinin İlahiyyat fakultəsinin məzunu Zəka Mirağayevdir. 2012-ci ilin iyun ayında ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyi və 18-ci Polis Bölməsinin əməkdaşları onun evində axtarış apararaq, heç bir sənəd tərtib etmədən dini kitablarını aparıb. Evdən əsasən Səid Nursinin müəllifi olduğu kitablar aparılıb. Z.Mirağayev kitabların ona hələ də qaytarılmadığını bildirir. Bununla bağlı yerli məhkəmə instansiyalarında iddiaları təmin olunmayan Z.Mirağayevin işi hazırda Avropa Məhkəməsindədir.

## NƏTİCƏLƏR

Monitorinq üzrə gəlinən əsas nəticə bu olmuşdur ki, dini vəsaitlərlə bağlı əsas problemlər mövcud qanunvericilikdən doğur. Dini vəsaitlərlə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə, müəyyən düzəlişlərin edilməsinə, boşluqların doldurulmasına ehtiyac var. Bu sahə ilə bağlı qanunda nəzərdə tutulan cəzalar həddindən artıq ağırdır. Qanunların yumşaldılmasına, dini kitabların Dini Komitənin icazəsi olmadan nəşrinə, yayılmasına, satışına görə tətbiq olunan cəzaların de-kriminallaşdırılmasına ehtiyac var. Bu sahədə hüquqi bazanın yaradılması üçün zəruri beynəlxalq normalar vardır. Bu normalar həm universal, həm də regional sənədlərdir. AİHK çərçivəsində qəbul olunan müvafiq sənədlər, Azərbaycanın Avropa Şurasına üzv olması ilə bağlı üzərinə götürdüyü öhdəliklərə uyğun qəbul etdiyi sənədlər, ratifikasiya etdiyi Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, ikitərəfli və çoxtərəfli dövlətlərarası müqavilələr bu sənədlərə tərəfdar çıxan dövlətlərə beynəlxalq standartlara cavab verən milli normalar və bu normaların tətbiqi və tətbiqinə nəzarət üzrə milli qurumların yaradılmasına imkan verir. Beynəlxalq və milli çərçivələrdə qəbul olunmuş normalar dövlətlər və onların hökumətləri qarşısında insanların bu və digər hüquqlarını təmin etmək öhdəliyini qoyur. Bunun üçün dövlətlər tənzimləyici tədbirlər həyata keçirməli, yaxud qanunvericilik sferasında məsələləri tənzimləmək üçün müvafiq xidmət strukturları yaratmalıdırlar. Bu tədbirlərin həyata keçirilməsi yalnız müvafiq normativ hüquqi bazanın yaradılması və müvafiq qurumların formalaşdırılmasından ibarət deyil. Burada hər hansı naliyyətin əldə edilməsi üçün müxtəlif dövlət təsisat potensialının cəmləşdirilməsi və kordinasiyası vacib şərtdir.

[44] https://www.irfs.org/az/news-feed/journalist-nijat-aliyev-sentenced-to-10-years-in-prison/
[45] https://www.amerikaninsesi.org/a/hebs/3677826.html

Həyata keçirilən monitorinq zamanı müəyyən edilib ki, dini sferada vəziyyətin gərginləşməsinin əsas səbəblərindən biri dini inanclı vətəndaşlarla dövlət arasında olan məsafədir. Belə ki, qanunvericilikdə dəyişikliklər zamanı dini icmaların, vətəndaş cəmiyyəti nümayəndələrinin fikirləri öyrənilməyib. Bu isə mövcud problemlərin həlli əvəzinə, daha da dərinləşməsi ilə nəticələnib.

## TÖVSİYƏLƏR

**1.** Dövlətin geniş mülahizə sərbəstliyinə malik olması, insan hüquqları ilə bağlı dəyərlərin mahiyyətinə xələl gətirməyə icazə sərbəstliyi kimi şərh edilməməlidir. Ana Yasada da qeyd olunduğu kimi, *Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.* Bu prinsip eyni zamanda bütün qanunvericiliyə şamil olunmalıdır.

**2.** Dini etiqad azadlığı haqqında Qanunda beynəlxalq standartlara zidd olan bir sıra məhdudlaşdırıcı müddəalar mövcuddur. Qanunun əhatə dairəsi, eyni zamanda din və vicdan azadlığının benefisiarları kimi əsas məsələləri tənzim edən müddəalarından başqa, dini materialların dərci və yayılması ilə bağlı hissəsi də beynəlxalq standartlara cavab vermək üçün yenidən işlənməlidir.

**2.1.** Qanun qarışıq terminologiyaya malikdir və bu hal Qanunun özbaşına şərhinə və tətbiqinə gətirib çıxara bilər. Bu maddədə istifadə olunan anlayışlar (məsələn, “dini təyinatlı ədəbiyyat” və “dini təyinatlı mal və məmulatlar”) çox yayğın olmaqla qanunvericilik aktı üçün uyğun deyil. Qeyd olunan ifadələr ya Qanunla müəyyən olunan daha dəqiq terminologiya ilə əvəz edilməli, yaxud ləğv edilməlidir.

**2.2.** Hüquqi müəyyənlik və öncəgörüləbilənliyi təmin etmək üçün Dini etiqad azadlığı haqqında Qanunun 22-ci maddəsi yenidən formulə edilməlidir.

**2.3.** Qanunun 22-ci maddəsinin 2-ci və 3-cü hissələri beynəlxalq insan hüquqları prinsiplərinə uyğun deyil. Bu hissələrin müvafiq maddədən çıxarılması tövsiyə olunur.

**3.** Fərdlərin və dini qurumların dini ədəbiyyat, əşya və başqa məlumatları istehsal, idxal, ixrac, sərbəst yaymaq və satmaq hüququ ilə əlaqədar aşırı məhdudiyyətlər aradan qaldırılmalıdır.

**4.** Qanunvericilikdə dini vəsaitlərin ekspertizasını həyata keçirəcək alternativ müstəqil ekspertiza nəzərdə tutulmayıb. Mövcud praktikada DQİDK-nin dini vəsaitlərlə bağlı verdiyi hər hansı rəy məhkəmə müstəvisində mübahisələndirildiyi zaman ekspertizaya Komitənin əməkdaşları cəlb olunur. Bu isə qərəzsizlik prinsipinin pozulması ilə nəticələnir ki, ekspertizanın obyektivliyi və müstəqilliyi şübhə altına düşür. Bu məsələ həllini tapmalıdır.

**5.** Cinayət Məcəlləsindən 167-2-ci maddə beynəlxalq insan hüquqları prinsipləri ilə uzlaşmır. Sadalanan məzmunlu təbliğat aparılmasına görə CM-in 283-cü maddəsində cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Eyni zamanda yuxarıda sadalanan 8-ci bənddə yazılanlar bu maddəyə də aiddir. Odur ki, 167-2-ci maddənin ləğv edilməsi tövsiyə olunur.

**6.** Avropa Şurası Parlament Assambleyasının və ATƏT-in detallı tövsiyələri yubadılmadan tətbiq edilməlidir. Bu istiqamətdə yeli və beynəlxalq vətəndaş cəmiyyəi qurumları ilə sıx əməkdaşlıq edilməlidir.

Sənəd **Demokratik Təşəbbüslər İnstitutunun (IDI)** apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhvə verən hər kəsə dərin təşəkkürünü bildirir.

***Məlumatlardan istifadə edərkən IDI -yə istinad etmək zəruridir.***


**Əlaqə məlumatları:**

Tel: +99455 234 76 76

Web: www.id-aze.org

E- poçt: demti.info@gmail.com

Facebook: www.facebook.com/DTI.IDI